

# BİR ÖMÜR NAĞILI

## İradənin və məqsədin qaliblərdən biri etdiyi insan

Əbülfət MƏDƏTOĞLU

**Həyatın göz qırpımı olması artıq inkar edilmız fakta çevrilib. Bunu ona görə xüsusi vurğulayıram ki, bir anın içərisində ən doğma adamı da itirmək, ondan ayrı düşmək, onun həsrətilə yaşamaq indi bir həyat lövhəsidi. Necə deyərlər, yarpaq qəfil qopub düşdüyü kimi, meyvə bir anda budaqdan ayrıldığı kimi, insan da həmin o bir anın içərisində Tanrıya qovuşur. Gedən çismi, nişanəsi isə ömür yollarında, bir də xatirələrdə qalır...**

Adətən dünyasını dəyişənlər barəsində danışanda ilk dilə gətirilən söz "rəhmət" kəlməsidi. Təbii ki, bunu da hər adam qazana bilmir. Xoşbəxt o kəsdir ki, hər dəfə adı dilə gələndə ruhuna ehtiram əlaməti olaraq Tanrıdan ona bir rəhmət istənilir. Deməli, bu insan həmin o oxunan dualarla, xatırlanan məqamlarla bizim çevrəmizdə olur, bizim həyatımızda yaşayır, bizimlə yanaşı addımlayır. Bunun özü əbədi yaşayışın, ölümsüzlüyün bir göstəricisidir. Heç də təsadüfi deyil ki, böyük Səməd Vurğun dahi Üzeyir bəy haqqında yazmışdı ki:

**Ölüm sevinməsin qoy,**
**Ömrünü vermir bada.**
**Şirin bir xatirədək**
**Qalacaqdı dünyada,**
**Sevilərək yaşayıb,**
**Sevilərək ölənlər.**

Həqiqətdi bu! Ona şərh yazmaq özü yanlışlıqdı. Bax, həmin həqiqətin biri də barəsində fikirlərimi bölüşmək istədiyim Məmməd Əhməd oğlu Ağdamskidi. Təbii ki, Məmməd müəllimin soyadına hər kəsdə bir maraq olacaqdı. Onun "Ağdamski" soyadı diqqəti çəkəcək. Və biz sizinlə birlikdə uzaq bir tarixə üz tutacağıq. O tarix ki, Azərbaycan mədəniyyətinin görkəmli simalarından birinin və bütövlükdə Bədəlbəyli-Ağdamski ünvanını vərəqləməyə həvəsləndirəcək. Elə ona görə də tarixi gerçəkliyə, yəni yazılı sənədlərə üz tutacağıq.

Öncədən vurğulamaq istəyirəm ki, Bədəlbəylilər, Ağdamskilər barəsində Azərbaycanın dəyərli araşdırmaçıları, yazıçıları, elm adamları bir-birindən maraqlı fikirlər söyləyiblər. Bunların arasında Qarabağ tarixinin, Qarabağ ziyalılarının, tanınmış şəxslərinin həyat yolunu yorulmadan araşdıran tədqiqatçı-yazıçı Vasif Quliyevin, yazıçı Mustafa Çəmənlinin, yazıçı Fazil Rəhmanzadənin, tədqiqatçı Ənvər Çingizoğlunun və digərlərinin adlarını xüsusilə qeyd etmək lazımdır. Həmin araşdırmalardan məlum olur ki, tarixi şəxslər olan Bədəl bəy Şuşada anadan olubdu. Sonradan onun törəmələri Bədəlbəyli soyadını daşıyıb. Bu nəsildən olan ailənin bir qolu da Əhməd bəy Ağdamskidi. Yəni Bədəlbəylilərin məşhur nümayəndələrindən biri olan Bəşir bəyin ikinci oğul övladı olan Əhməd bəy 1884-cü ildə Ağdamda anadan olub. Və o, özünün teatr həvəskarlığı ilə zamanında fərqlənən simalarından birinə çevrilib. Azərbaycan teatr tarixində ilk dəfə qadın obrazını ifa edən məhz Əhməd Ağdamski olmuşdu. Heç bir musiqi təhsili olmayan Əhməd bəy yaratdığı obrazlarla tamaşaçıları heyrətə salmış, dahi bəstəkarımız Üzeyir Hacıbəyovdan tutmuş digər dövrünün aydınları ilə canlı əlaqələri olmuşdu. Bax, indi həm kədər, həm də qürur hissiylə barəsində söz açdığım Məmməd Əhməd oğlu Ağdamski də məhz Əhməd Ağdamskinin dörd övladından biridi. Onu da vurğulayım ki, Stalinin represiyalarından qorunmaq üçün Ağdamdan köçməyə məcbur olan, Bakıda, sonra Ağdaşda yaşayan Əhməd Ağdamski 1954-cü ilin aprel ayının 1-də dünyasını dəyişibdi. Onun böyük övladı Məmməd Əhməd oğlu Ağdamski 1934-cü ilin oktyabr ayının 20-də Ağdaşda anadan olub. Təbii ki, soyadın Ağdamski olması da onun səcərəsinin göstəricisidir. Və...

Yaxın günlərin söhbətidir. Telefonuma zəng gəldi. Eşitdiyim səsin şirinliyi məni bir az uzaqlara çəkdi. Açığını deyim ki, bir xeyli düşündüm. Susduğumu hiss edən şəxs, yəni məni telefonla arayan insan özünü təqdim etdi:

- Deyəsən tanımadın? Narahat edən Telman Ağdamskidi!..

Bu mənə kifayət etdi. Telman müəllimi, Qarabağımızın fəxri olan insanlardan birini yaxşı tanıyıram. Onu mənə ilk dəfə Vasif Quliyev təqdim etmişdi. Telman müəllimlə telefonda hal-əhval tutandan sonra öyrəndim ki, təkcə Ağdamski ailəsinə deyil, bütövlükdə Azərbaycan cəmiyyətinə, xüsusilə Qarabağ adlı özəl dünyamıza ağır itki üz verib. Az qala neft istehsalı ilə məşğul olan bütün ölkələrdə tanınan, Azərbaycan neft sənayesinin inkişaf tarixində xüsusi yeri olan Məmməd Əhməd oğlu Ağdamski dünyasını dəyişib... Qarşımdakı sənədləri vərəqləyirəm, kitabları gözdən keçirirəm. Məmməd Ağdamskinin özünü, nurlu simasını gözümün önünə gətirirəm. Və bir də görürəm ki, onunla üz-üzə dayanıb söhbətləşirik. Bu söhbətin ağrılı məqamları da var. Həmin ağrı da qarabağlı, ağdamlı olan bir ailənin həbsdən qorunmaq üçün doğma ocağını tərk etməsidi. Yeni bir mühitdə, yeni bir çevrədə dünyaya gəlməsidi. Doğrudur, Ağdaş mühiti Ağdamskilər üçün uğurlu olub. Burada gələcəyin böyük aydınlarından olan Habil Əliyev kimi kamança ustasıyla bir məhəllədə, bir həyətdə böyümək özü də bir şans idi. Ona görə də Məmməd Ağdamskinin anası Rəhilə xanım övladlarını - oğlu Telmanı, qızları Kamilə və Cəmiləni zamana, gələcəyə uyğun şəkildə tərbiyə etmək, atalarının, yəni Əhməd bəyin nüfuzunu bu övladların simasında sabahlara çatdırmaq üçün hər cürə əziyyətlərə qatlaşdı. Məhz onun bir ana kimi uşaqlarına aydırdığı vaxt övladların təhsilə, elmə olan maraqlarını da gücləndirdi.



Və günlərin birində Məmməd Ağdamski valideynlərinin əlindən tutub məktəbə yollandı. Çalışqanlığı, diribaşlığı, xüsusilə diqqətcil olması onu hamıdan fərqləndirirdi.

Bugünün özündə də ötən əsrin 40-50-ci illərinə üz tutub söhbət edəndə Məmməd Ağdamskini tanıyanlar onun necə həvəslə oxuduğunu, hər şeyi təkrar-təkrar öyrənmək istədiyini xüsusi qeyd edirlər. Bax, bu böyük maraq onu axtarışlara yönəltmişdi... tapmaq, öyrənmək axtarışlarına. Seçdiyi həyat yolu da məhz axtarışlardan keçirdi. Artıq 1951-ci ildə Məmməd Ağdamski indiki Dövlət Neft Akademiyasının geologiya-kəşfiyyat fakültəsinə daxil olmuşdu. Ali təhsil aldığı illər ərzində də tələbə dostlarının, müəllimlərinin diqqətini özünə çəkən bu qarayanız, istiqanlı, mehriban oğlan 1956-cı ildə təyinatla "Balaxanıneft" Neft və Qazçıxarma İdarəsinə göndərilir. Ömrünün sonuna kimi neft sənayesində çalışan Məmməd Ağdamski operator kimi fəaliyyətə başlasa da, bu sahənin pillələrini uğurla keçmiş və xəyallarında qurduğu, yaşatdığı Azərbaycan neftinin sirlərini öyrənmək istəyinə qovuşa bilmişdi. Məhz onun quruda apardığı axtarışlar, tətbiq etdiyi yeniliklər, neft sənayemizin uğurlarının artmasında həyata keçirdiyi layihələr bir daha sübut etdi ki, istəyi, amalı geologiya elminin bütün gücündən istifadə etmək olan Məmməd Ağdamski haqq yolçusu olmaqla həm də millət, torpaq sevdalı vətəndaş idi.

Onun ömür kitabını vərəqləyəndə qazandığı uğurlar, aldığı mükafatlar, fəxri adlar göstərir ki, Məmməd Ağdamski ömrünün hər anını məhz seçib-seçdiyi peşə ilə, yəni neftlə bağlamışdı. İstər Sovet dönəmində, istər Azərbaycanımız müstəqilliyə qovuşduqdan sonra da Əməkdar geoloq olan Məmməd Ağdamski gecə-gündüzünü quruda neft istehsalına həsr etməklə qara qızılın şöhrətini artırmışdı. Bu həm də onun bir geoloq kəşfiyyatçı kimi yorulmazlığını, qətiyyətini, özünəgüvənini göstərən şərt idi. Azərbaycan Neftçi Geoloqlar Assosiasiyasının üzvü, XXI əsrin tanınmış neftçisi və daha neçə-neçə nüfuzlu cəmiyyətlərin, adların daşıyıcısı olan Məmməd Ağdamski öz həyat yolunu torpaqla bağlamışdı, torpağa istinad etmişdi. O, yerin qatlarını öyrənə-öyrənə öz həyat yolunun qatlarını da cilalamışdı...



**İndi ruhu həsrətini çəkdiyimiz Qarabağda, bütövlükdə Azərbaycan adlı məmləkətin səmasında dolaşan Məmməd Əhməd oğlu Ağdamski barəsində bu kiçik qeydləri yazarkən ən çox xatırladığım zəhmətin, elmin və bir də cəsarətin insanı öz məqsədinə çatmasına yardımçı olduğuna əminliyim idi. Yəni mən bir daha inandım ki, məhz Məmməd müəllim kimi insanlar təkcə xeyrxahlıqların, səmimiyyətləri, insanpərvərlikləri ilə deyil, həm də ağıl və iradələrinin gücünə qaliblər sırasına çıxırlar və ora da öz möhürlərini vururlar. Tariximizdə izi, möhürü qalan Məmməd Ağdamski məhz həmin o əbədiyaşar insanlardan biridir. Ruhu şad, məkanı cənnət olsun!**

**P.S. Xalq şairi unudulmaz Bəxtiyar Vahabzadə yazırdı ki:**

**Ürək fikrin tilsimidir,**
**Hər qatı bir lay kimidir.**
**İnsan - göydə Ay kimidir,**
**Görünməyən tərəfi var.**

**Bu misraları ona görə xatırladıram ki, Məmməd Ağdamski təkcə ailə başçısı, geoloq, vətəndaş yox, həm də böyük ürək sahibi olan əsl insan idi. Yəni ona hansı tərəfdən baxsan, hansı hərəkətinə qiymət vermək istəsən yenə gəlib onun bütöv insanlığının önündə dayanmalı olursan. Bax bu mənada rəhmətlik Məmməd Ağdamski öz həyat yolunu bütöv bir kitaba, əsərə çevirə bilmişdi. Oxuduqca öyrəniləcək bir kitaba!**